Azərbaycan Respublikasının
Dövlət Turizm Agentliyi

# İyul ayında Azərbaycana 10.6% çox xarici qonaq səfər edib

2019-cu ilin iyul ayında Azərbaycana 365 min əcnəbi qonaq səfər edib ki, bu da 2018-ci ilin iyul ayına nisbətdə 10.6% artım deməkdir. Qonaqların üçdə birindən çoxunu 35%-lə Rusiyadan gələnlər təşkil edib. 2018-ci ilin eyni ayı ilə müqayisədə Rusiyadan 11 min və ya 10% çox qonaq gəlib. İyul ayı üzrə ən böyük artım Gürcüstandan gələnlər arasında müşahidə olunub, belə ki, ötən ilin eyni ayı ilə müqayisədə 12 min və ya 26% daha çox xarici vətəndaş gəlib. Bununla da iyul ayında Gürcüstandan gələnlərin sayı 61 min nəfər təşkil edib. Yaxın Şərq ölkələrindən gələnlərin sayı 7 min və ya 10% azalaraq 60 minə çatıb. Qeyd edək ki, Səudiyyə Ərəbistanından səyahət edənlərin sayı 25% artaraq rekord həddə - 29 minə çatıb. İraq, BƏƏ, Oman və Küveyt kimi Yaxın Şərqin digər ölkələrində azalma müşahidə olunub. Türkiyə, İran, Mərkəzi Asiya və Cənubi Asiyadan 29, 21, 14 və 12 min nəfər gəlib, artım müvafiq olaraq 6%, 10%, 41% və 25% təşkil edib. Son aylarda olduğu kimi Hindistan (7 min; 81% artım) və Pakistan (5 min; 13% azalma) Cənubi Asiyanın, Qazaxıstan (6 min; 26% artım) və Türkmənistan (6 min; 68% artım) isə Mərkəzi Asiyanın əsas turizm bazarlarıdır.

**Qrafik 1: 2019 və 2018-ci ilin iyul ayında 7 ölkədən və regiondan gəlmiş xarici səyahətçilər (min)**




Cari ilin yanvar-iyul aylarında Azərbaycanı 1.8 milyon xarici səyahətçi ziyarət edib ki, bu da 2018-ci ilin ilk yeddi ayı ilə müqayisədə 122 min və ya 7.4% çoxdur. Ən böyük artım 76 min və ya 23% daha çox xarici qonaqla Gürcüstandan gələnlərin sayında müşahidə olunub. Mərkəzi və Cənubi Asiyadan gələn səyahətçilərdə də müvafiq olaraq 39% və 44% artım qeydə alınıb. Ən yaxşı turistik bazarlar sayılan Rusiya və Türkiyədən gələnlərin sayı 4% artıb. Yanvar-iyul dövrü ərzində bu ölkələrdən gələnlərin sayı müvafiq olaraq 542 və 176 min təşkil edib. Mərkəzi və Cənubi Asiya regionlarının inkişaf etməkdə olan bazarlarında - Türkmənistan və Hindistanda da böyük həcmdə artım mövcuddur. Belə ki, bu ölkələr üzrə artım müvafiq olaraq 81 və 80% qeydə alınıb və ilk yeddi ay ərzində gələnlərin sayı 27 və 33 minə çatıb. İrandan gələnlərin sayı 23% azalaraq 127 min, Yaxın Şərqdən gələnlərin sayı isə 6% azalaraq 205 min olub.

Qeyd etmək lazımdır ki, yanvar-iyul dövrü ərzində Azərbaycan turizmi üçün ənənəvi xarakter daşımayan Qərbi Avropa ölkələrindən gələnlərin sayı 14 min və ya 25% artaraq 73 min təşkil edib.

**Qrafik 2: 2019 və 2018-ci ilin yanvar-iyul ayları ərzində 7 ölkə və regiondan gəlmiş xarici səyahətçilər (min)**



**Metodoloji qeyd:** Xarici səyahətçilərin sayı Dövlət Sərhəd Xidməti tərəfindən verilən məlumata əsasən, Azərbaycanın dövlət sərhədini keçmiş xarici vətəndaşların sayına müvafiq olaraq hesablanıb. Bu rəqəmlər turizm məqsədilə səfər edən şəxslərlə yanaşı, BMT-nin Ümumdünya Turizm Təşkilatının 2008-ci ilin Turizm Statistikası üçün Beynəlxalq Tövsiyələrinə uyğun olaraq, bu kateqoriyaya aid edilməyən digər səyahətçiləri, misal üçün, sərhəd işçiləri, uzunmüddətli işçilər və tələbələr, pasiyentləri və s. əhatə edir. Nəticə etibarilə, gəlmə turizm axını bu hesabatda qeyd edilmiş səyahətçilərin sayından bir qədər azdır.

Cədvəl 1: 2019-cu ilin iyul ayında və 2019-cu ilin yanvar-iyul aylarında müxtəlif ölkə və regionlardan gələn xarici vətəndaşların sayı, habelə 2018-ci ilin müvafiq dövrləri üçün analoji rəqəmlər.

| Region | 2019 | | 2018 | |
|---|---|---|---|---|
| | İyul | Yanvar-İyul | İyul | Yanvar-İyul |
| Rusiya | 128 457 | 542 425 | 117 022 | 520 571 |
| Gürcüstan | 61 390 | 404 213 | 48 714 | 327 816 |
| Yaxın Şərq | 60 192 | 205 437 | 67 155 | 219 014 |
| Türkiyə | 28 791 | 176 494 | 27 193 | 169 669 |
| İran | 21 064 | 127 331 | 19 200 | 165 680 |
| Mərkəzi Asiya | 14 610 | 68 666 | 10 339 | 49 574 |
| Qərbi Avropa | 13 872 | 70 943 | 10 839 | 56 856 |
| Şərqi Avropa | 13 286 | 61 576 | 10 880 | 57 319 |
| Cənubi Asiya | 12 333 | 61 238 | 9 882 | 42 434 |
| Şimal-şərqi Asiya | 5 277 | 23 259 | 3 407 | 15 193 |
| Amerika | 2 957 | 16 303 | 2 863 | 15 202 |
| Digər | 1 232 | 5 439 | 1 166 | 4 516 |
| Afrika | 909 | 5 591 | 698 | 4 472 |
| Cənub-şərqi Asiya | 783 | 5 962 | 675 | 4 972 |
| **CƏMİ** | **365 153** | **1 774 877** | **330 033** | **1 653 288** |